# SƏYİRT KÖHLƏN ATINI...



**Əsrlərdən-əsrlərə keçərək şifahi yolla müasir dövrə qədər gəlib çatmış folklor nümunələrindən olan bayatılar digər söz sənəti inciləri kimi böyük bədii, ictimai-siyasi və əxlaqi-etik əhəmiyyətə malikdir.**

Bu nümunələrdə xalqımızın mədəniyyəti, tarixi, etnogenezi, təfəkkür tərzi qorunub saxlanmışdır. Həmin dəyərli qaynaqlar içərisində fiziki tərbiyə və fiziki mədəniyyətin də öz dünyası, öz aləmi vardır.

Qədim çağlardan üzü bəri insanların gündəlik məişətinə daxil olmuş və onların fəaliyyətləri ilə bağlı müxtəlif milli xalq idman oyunları, fiziki təmrinlər zaman keçdikcə təkmilləşmiş və daha kütləvi şəkil almışdır. Bu baxımdan şifahi xalq yaradıcılığımızın daha ilkin dövrləri ilə sıx bağlı olan milli idman oyunları və fiziki hərəkətlər əsrlər ötdükcə bu və ya digər cəhətdən daha dərin məna kəsb etmiş, əhatəlilik baxımından özünü doğrultmuşdur. Folklor materiallarını araşdırdıqca xalqımızın hələ uzaq keçmişlərdə fiziki tərbiyəyə çox böyük yer verdiyini görürük.

İnsanın fiziki-cismani yetkinliyi, onun dəyanətli və əzmkar bir fərd kimi təşəkkül tapmasında önəmli vasitə olan fiziki tərbiyə və idman məsələləri təfəkkürlə bağlı şəkildə bayatılarda da geniş yer tutur. Formaca dörd bitkin misradan ibarət bədii və təsirli, fəlsəfi, mənəvi-əxlaqi, ictimai fikirlərlə zəngin, yığcam, lakonik, lirik parçalarda insanın gümrahlığı və çevikliyi, sağlam həyat tərzinin gərəkliyi, habelə fiziki təmrinlərin, idman avadanlıqları və ləvazimatlarının əksər növləri ilə yanaşı, ən çox atla bağlı fiziki bacarıq və vərdişlərə söykənən arzu və istəklərin ifadəsi əks olunur:

*Qızılgül bağın olsun,*
*Bağlar oylağın olsun,*
*Tanrıdan arzum budu,*
*At minən çağın olsun.*

*Oxşasın dilim səni,*
*Böyütsün elim səni,*
*Meydanda at oynadan*
*Bir igid bilim səni.*

*Əzizinəm at minə,*
*At oynadıb, at minə,*
*Şükr edirəm o günə*
*Balam da bir at minə.*

Dünya, o cümlədən Şərq, eləcə də Azərbaycan folklorşünaslığının, mifik fikrinin müqtədir bilicisi professor M.Təhmasib "Bizdə bayatının, laylanın, ağının, hətta vəsf-halın, holavarın əsas mövzusu məhəbbətdir, qəhrəmanlıqdır, igidlikdir" deməklə, böyük bir həqiqəti təsdiq etmişdir.

Azərbaycan xalq bayatılarında mərdlik və qəhrəmanlıq tərənnüm olunarkən ox atmaq, at çapmaq, nişan almaq, qılınc oynatmaq, nizə tutmaq və s. kimi fiziki tapşırıqlar ön planda verilir, çox vaxt qəhrəmanlıq və vətənpərvərliklə əlaqələndirilir:

*Dağlarda car səsi var,*
*Yox deyil, var səsi var,*
*Kəhər atlar nallanır,*
*Yenə səfər səsi var.*

Tarixən türk xalqlarının məişətində, xüsusilə onların düşmən üzərindəki yürüşlərinin zəfər çələnginin maddiləşməsində atın müstəsna rolu olmuşdur. Düşmən üstə həmlə edən türk bahadırlarının mahir çaparlığı, əsl süvarilik vərdişləri hələ erkən yaşlarından gözəl minici tək atı cövlana gətirmələri, at çapmaları, at oynatmaları, at üstə müxtəlif akrobatik oyunları nümayiş etdirərək vuruş qabiliyyətlərinə yiyələnən məğrur alplar kimi tərbiyə olunmaları onların fiziki ustalıqlarına dəlalət edirdi:

*İgid gərək atlana,*
*Ata minə, atlana.*
*Mərd odur ki, döyüşdə*
*Hər yaraya qatlana.*

*Gül-gülə qat, a bağlar,*
*Dərd-qəmi at, a bağlar.*
*Yaxşı at minən igid*
*Ümidin ata bağlar.*

*Burdan bir atlı keçdi,*
*Atın oynatdı keçdi,*
*Gün kimi şəfəq saçdı,*
*Ay kimi batdı keçdi.*

*Getmərəm otağınnan,*
*Gül sınar butağınnan,*
*İgid atın səyirdər,*
*Düşmənin yatağınnan.*

Döyüş meydanlarında yağı düşmənləri diz çökdürən ərənlərimizin əsas köməkçiləri onların şimşək tək süzən atları olmuşdur. Xalqımız yaratdığı "Hünər atdandır", "At işləməsə, ər öyünməz", "Piyada ərin ümidi olmaz; at işlər, ər öyünər", "Yaxşı igid dalı gözlər, yaxşı at qabağı", "Yaxşı at minən igid, ümidini ata bağlar", "Atı adı ilə, igidi od ilə", "Özgə atına minən tez düşər", "Yaxşı at özünə qamçı vurdurmaz", "Arpa yeyən at tez mənzil döyər", "At muraddır", "At qardaşdan da yeydir", "At dişindən tanınar, igid işindən", "At təpiyinə at dözər", "Atla igidin məkanı olmaz", "At yerişindən, igid duruşundan tanınır", "Quş qanadı ilə, ər atı ilə", "At igidin yaraşığıdır", "Atı yolda, igidi zorda sınayarlar", "Atını əlindən verən ismətini də verər", "Atı yolda, igidi zorda sınayarlar", "Dayçanı təriflə, ancaq ata min", "Yəhər ata bəzəkdi, arvad evə", "Atdı, arvatdı, papaqdı kişiyə qeyrət", "At ölər meydan qalar, igid ölər ad-san qalar", "At minəndə vərəm olmaz", "At minənindir, qılınc bağlayanın". "At minicisinə görə kişnər", "Ata güc, adama ağıl lazımdır", "Ata dost kimi bax, düşmən kimi çap", "At minəndə özünü unutma, atdan düşəndə - atını", "At ölümü, ər ölümü" və s kimi atalar sözü, zərb-məsəllərdə at hünər meydanında igidin vəfalı, sadiq dostu olan bir canlı varlıq kimi təsvir edilir:

*Mən aşiq üzər ağlar,*
*Dərdlərə dözər ağlar,*
*Sahibi ölmüş at da*
*Çöllərdə gəzər ağlar.*

*Mən aşiq dağlar gördüm,*
*Saralmış bağlar gördüm,*





*Şəhid olmuş igidin*
*Atını ağlar gördüm.*

*Yağılar aşdı qaşı,*
*Yandırdı dağı-daşı,*
*Sahibi ölmüş at da,*
*Ağlar, tökər göz yaşı.*

Oğuz elatlarının qəhrəmanlıqla dolu yaxın keçmişində yaddaşlarda iz qoyan süvari döyüş səhnələrinə unutqanlıqla yanaşmaq ən azı böyük bir haqsızlıqdır. Ağzındakı dəhnəyə bərkidilmiş gəmi saqqız kimi çeynəyən, heç bir cilova, qantarğaya məhəl qoymayan, möhkəm tafqırla bərkidilmiş ayağı səkilli, qaşqa-təpəl, uzun yalmanlı, enli sağrılı, daim şahə qalxan, kişnərtisilə quşa qanad saldıran cins yerli atların yalmanına yataraq o dövrlərin döyüş xarüqələrini yaratmış igidlərimizin şəninə saysız şərqilər, bayatılar qoşulmuşdur:

*Mən aşiqəm atı var,*
*Göyün yeddi qatı var,*
*Öndə gələn oğlanın*
*Altında göy atı var.*

*Göy at, yalına qurban,*
*Tirmə şalına qurban,*
*Sən məni yarə yetir,*
*Polad nalına qurban.*

Türklər tarixən döyüşkən xalq olduğu üçün onun cahangir ərənlərinin at seçmək, onunla davranmaq, ona münasibət, atın əhliləşdirilməsi, çaparlıq məharəti, süvarilik qabiliyyəti və s. kimi iradı, mənəvi və fiziki keyfiyyətlər onların fitrətindən irəli gəlirdi. Odur ki, tək hun dövründən bəri Mete və Atilla xələflərinin yerlə-göylə əlləşən ildırım sürətli ayğır kimi dördnala qaçan şahbaz atlar yetişdirmək ənənəsi xalqımızın milli-mənəvi dəyərlərindəndir:

*Əzizim, yaxşı ata,*
*Vur oxun yaxşı ata,*
*Qılıncı qoç igidə,*
*Pulu ver yaxşı ata.*

*Atlandıq düşəndə nal,*
*At getməz, düşəndə nal,*
*Aşiq, dərdinə dərman*
*Var, dərdə düşəndə al!*

Təkzibedilməz faktdır ki, sıx yalmanlı, ifcin yəhərli, dəmir nallı, gümüş üzəngili, qotazla bəzənmiş, qırmanc vurmadan şahə qalxan köhlən atların belində cəsur igidlərimiz ən mürəkkəb maneələri dəf etmiş, təhlükənin birbaşa üzərinə alıcı quş kimi şığımış, ən ağır anlarda belə çətin qələbəni asanlaşdırmışlar:

*Dağlara salma hayı,*
*Qaçar maralın tayı*
*Könlü bədöy istəyən*
*Vaxtında alar dayı.*

*Mən aşiq, yaxşı öyər,*
*Yad pislər, yaxşı öyər,*
*Bədöy at düşmən görsə,*
*Ayağın yerə döyər.*

Ona görə də hünər meydanında igidin yaxın köməyi, arxası olan yorğa yerişli, mərdanə duruşlu, fınxıranda bir elatı diksindirən, tərpənəndə cingir qayaları ovxarlandıran, cazibəli, mərcan gözlü cins atların yetişdirilməsi ulu sələflərimizin daim diqqət mərkəzində durdu. Təsadüfi deyildir ki, türk eposlarındakı qəhrəmanlardan Qazan xanın Qonur atı, Bamsı Beyrəyin Boz ayğırı, Bəkilin Al ayğırı, Qaragünənin Göy bədöysün atı, Şirşəmsəddinin Al bədöy atı, Səkrəkin Qaraqaş atı ("Kitabi-Dədə Qorqud"), Ural Batırın ("Ural Batır") Ağboz atı, Xızırın ("Manas") Ağboz ağı, Maalay Qaranın ("Maday qara") Qara kəhər atı, Metenin, Gültiginin Ağ atı, Şirinin Şəbdiz və Gülgünü, Koroğlunun Qırat və Düratı, Dəmirçioğlunun Ərəb atı, Giziroğlunun Alapaçası, Şah İsmayılın Qəmərdayı, I Şah Abbasın Qəmər atı, Qaçaq Nəbinin Boz atı, habelə dünyada bənzəri olmayan Azərbaycanımızın Qarabağ atı ("Meymun", "Qarnıyırtıq", "Əlyetməz"), Şirvan atı, Qazax atı ("Dilbaz", "Haçadil"), Quba yorğası və s. tək enli gövdəli, cidovu hündür, girdə sağrılı, iri döşlü, mütənasib bədən quruluşuna malik kürən, kəhər, səmənd və boz atları deyimlərdə, epos və əfsanələrin olduqlarından da çox totem kimi canlandırılmışdır:

*Dər gülü, at igidə,*
*Varın var, sat igidə.*
*Bərk gündə, bərk ayaqda*
*Yoldaşdır at igidə.*

*Bulud gəlir qathaqat,*
*Bir-birinə çathaçat.*
*İgidi darda qoymaz*
*Mənzil kəsən bədöy at.*

*Əziziyəm, yaxşı at,*
*Nişan götür, yaxşı at.*
*İgidi cavan saxlar,*
*Yaxşı arvad, yaxşı at.*

Yedəyindəki tövşəmək bilməyən şahbaz atının tərkindən yaraq və əsləhəni götürüb tumarlayaraq,

hörükləyib, əyri polad qılıncını bülövləyən, şeşpərini itiləyib, kamanının girməsini çəkərək türkün növbəti cahangir savaşını atsız təsəvvür etmək müşkül məsələdir. Kökü çox uzaqdan gələn, tarixin müxtəlif dönəmlərində məkrli mətləblərini xısın-xısın həyata keçirməyə çalışan möhtəşəm səltənətlərin riyakar və quduz sərkərdələrinin köpünü türkün cahangir oğlu göz qırpımında alaraq, onları öz köpək donqultularında boğub xanimanlarını viran qoymuş, yurdlarını xarabalıqlara çevirmişlər. Eldəgiz, Əmir Teymur, Alp Arslan, Sultan Bəyazid, Fateh Sultan Mehmed II, Toxtamış, Babur, Sultan Süleyman Qanuni, Sultan Yavuz, Abbas Mirzə, Şeyx Şamil, Mustafa Kamal Atatürk kimi əzəmətli xaqanlar, bənzərsiz paşalar, ünlü sərkərdələrimizin tarixi zəfərlərinin misilsiz rəşadətlərində, onların geninin cövhərində olan ərdəmlik, türklük qanı həmişə özünü büruzə vermişdir.

Minərinə heç vaxt naxələf çıxmayan atı türklər daim özlərinə ən məhrəm dost və sirdaş sanmışlar. Atın bu qeyri-adi həssaslığını duyan professor Cavad Heyət göstərir ki, at da dastan qəhrəmanlarının vəfalı və məhbub yoldaşıdır. Orta Asiya bozqırlarında yaşayan türklər atı da qadın və silahları kimi öz namusları bilmişlər. At sevgisi islamdan sonra da türklər arasında davam etmişdir.

Xalqımız həmişə atı igidin sadiq dostu, vəfalı həmdəmi, məişətdə və döyüşdə minik vasitəsi kimi özünə yaxın köməkçi saymış, hətta onun yaxşısını yamanına qarşı qoymaqla obrazlaşdırmışdır. Bunlardan fərqli olaraq qamçı qorxusuna, mahmız gücünə zorla yeriyən fərsiz, bivec, bədəsil, axsaq atlar, təpərsiz madyanlar, yortax (şortax), şilxor yabılar el arasında daim tənqid obyektinə çevrilmiş, onların məzlum sahibləri isə həmişə döyüş meydanlarında biabırcasına rüsvay olaraq gülüş hədəfinə çevrilmişlər:

***Əzizim, abı damdı,***
***Göy durdu, abı damdı.***
***Köhləndən xəta gəlməz,***
***Nə olsa yabıdandı.***

Bir çox bayatıları araşdırarkən məlum olur ki, igidlik təkcə at çapmaq, qılınc oynatmaq, qüvvətli və cəsarətli olmaqla bitmir. İgid eyni zamanda öz elinin, obasının şərəfini yüksək tutan, tədbirli və düşüncəli, mərdliyi və sədaqəti bacaran ərən olmalı idi. Xalq bu keyfiyyətlərə yiyələnən adamlara həmişə ehtiram göstərər, şeirlərdə, mahnılarda onları xalq qəhrəmanları kimi tərənnüm edərdi.

Mərd, zirək və şücaətli adamlar qoç igid tək döyüş meydanlarında özünü itirməyib təşəbbüsü ələ almağı, dostunu, yoldaşını darda qoymamağı, hətta mühasirəyə düşdükdə belə qürurunu itirməyib son nəfəsinə kimi mübarizə aparmağı bacarmışlar:

***Yar gəlir bədöy atda,***
***Arxalığı gey, qatda.***
***Mərd oğul bəd günü,***
***Ya atda, ya yer altda.***

At səyirtmək, qılınca qurşanmaq, ox-yay dartmaq tarixən türklərin məişəti üçün ənənəvi olmuşdur və onların cahanşümul müzəffər yürüşlərində göstərdikləri alp ərənlik xalqın fiziki kamilliyi ilə sıx bağlı olmuşdur. Qıvraq bədənli, rast qamətli, möhkəm əzələli oğuz igidlərinin nizə, şeşpər, əmud, gürz, cida və s. kimi silahları əllərində bir dəfə samlayıb tullamaqla yağıları pərən-pərən salmaları bilavasitə onların fiziki ustalıqlarına dəlalət edirdi. Odur ki, varislərini əldə qılıncı möhkəm tutan mahir minici, sərrast ox atıb nişan alan hünərvər alplar cərgəsində görmək arzusu ulu sələflərimizin ən ülvi amalı, istəyi kimi onları daim düşündürmüşdür:

***At meydanda;***
***Görünür at meydanda.***
***İgidsən qarşıma keç,***
***Gəl oxun at meydanda.***

***İgidin bir atıdır,***
***Bir də təmiz zatıdır.***
***Koroğluda qoçaqlıq***
***Onun ehtiyatıdır.***

Beləliklə, qədim, zəngin, milli, habelə ümumbəşəri səciyyəli tükənməz mənəvi sərvətimiz olan şifahi xalq yaradıcılığımızın əksər janr və növlərində olduğu kimi, bayatılarımızda da fiziki tərbiyə, fiziki kamillik, igidlik və qəhrəmanlıq motivləri ilə bağlı dəyərli fikirlərin araşdırılıb təbliğ və təşviq olunması çox önəmli və gərəkli bir məsələdir.

● **Mobil ASLANLI**

## Ədəbiyyat

1. Bayatılar. Toplayanı və tərtib edəni H.Qasımov. Bakı, Azərnəşr, 1960.
2. Azərbaycan ədəbiyyatı inciləri. Bakı, "Yazıçı", 1988.
3. Azərbaycan bayatıları. Tərtib edənləri: B.Abdullayev, E.Məmmədov, Q.Babazadə. Bakı, "Elm", 1984.
4. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı. Azərnəşr,1998.